# Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün mətn təhliletmə bacarıqları yoxlanılması üzrə PROQRAM

## Mətn təhliletmə bacarığı

Dövlət qulluqçusunun **mətn təhliletmə bacarıqları** verilmiş mətnə dair hazırlanmış suallar əsasında yoxlanılır. Mətn təhliletmə blokunda namizədlərə humanitar, sosial-iqtisadi, elmi-puplisistik və s. mövzularda mətnlər və onların əsasında suallar təqdim olunacaq. Bu suallarla dövlət qulluqçusunun ona təqdim olunmuş mətndə verilmiş verbal məlumatları anlamaq, ümumiləşdirmək, mücərrədləşdirmək, mətni məntiqi və tənqidi təhlil etmək, məlumatlardan nəticə çıxarmaq, mətnə əsasən verilmiş mülahizələri (mülahizənin doğruluğunu) qiymətləndirmək bacarıqları yoxlanılacaq. Sualların cavablandırılması zamanı yalnız mətndə əks olunan məlumatlara istinad olunmalıdır.